*Tədris Mərkəzinin «2» dekabr 2015-ci il tarixli*

*1595040100218400 nömrəli əmrinə 3 saylı Əlavə*

**Tədris Mərkəzində qrupun kuratorunun işinin təşkili**
**Qaydaları**

## 1. Ümumi müddəalar

1.1. "Tədris Mərkəzində qrupun kuratorunun işinin təşkili ilə əlaqədar Qaydalar" Azərbaycan Respublikasının "Təhsil haqqında" Qanununa, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2002-ci il 5 iyun tarixli 90 nömrəli qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Vergilər Nazirliyinin Tədris Mərkəzinin Əsasnaməsi"nə, Vergilər Nazirliyinin 24 iyun 2014-cü il tarixli 1417040100758700 nömrəli əmri ilə təsdiq olunmuş "Azərbaycan Respublikasının Vergilər Nazirliyinin tədris konsepsiyası"na və "Dövlət vergi orqanlarının vəzifəli şəxslərinin peşə hazırlığının təşkili Qaydaları"na, 5 sentyabr 2014-cü il tarixli 1417040101224000 nömrəli əmri ilə təsdiq olunmuş "Azərbaycan Respublikası Vergilər Nazirliyində kuratorluq (himayədarlıq) təlimləri barədə Metodiki Tövsiyələr", eləcə də digər normativ-hüquqi aktlara uyğun olaraq hazırlanmışdır.

1.2. Tədris qruplarında kuratorluğun tətbiqinin məqsədi dinləyicilərlə auditoriyada və auditoriyadankənar işlərin təşkilinin təkmilləşdirilməsindən, onların tədris mühitinə uyğunlaşmasının təmin edilməsindən, tədris prosesində qarşıya çıxa biləcək məişət məsələlərinin çevik həll edilməsi üçün şəraitin yaradılmasından, dinləyicilər üçün müstəqil öyrənmə şəraitinin təmin edilməsindən ibarətdir

## 2. Kuratorun hüquq və vəzifələri

2.1. Qrupun kuratorluğu Tədris Mərkəzinin rəisinin əmri ilə Mərkəzin kafedralarında çalışan əməkdaşlardan birinə həvalə edilir.

2.2. Kuratorunun vəzifələri aşağıdakılardır:

- dinləyicilərin Tədris Mərkəzində öyrənmə və məişət şəraiti barədə məlumatlandırılması;

- dinləyicilərin Mərkəzin rəhbərliyi və təlimçi heyəti ilə daimi informasiya əlaqəsinin təşkili;

- dinləyicilərin müstəqil öyrənmə imkanlarının artırılması və məişət məsələlərinin həlli üçün zəruri tədbirlər barədə Mərkəzin rəhbərliyinə məlumat verilməsi;

- dinləyicilərə öyrənmə fəaliyyəti üzrə tövsiyələrin verilməsi.

- dinləyicilərə auditoriyadankənar vaxtda asudə vaxtın təşkili ilə bağlı köməklik göstərilməsi

2.3. Kuratorunun aşağıdakı hüquqları vardır:

- Dinləyicilərin məişət və tədris sahəsində fərdi və ümumi çətinliklərini öyrənmək üçün onlarla mütəmadi olaraq görüş keçirmək;

- Dinləyicilərin məişət və tədris sahəsində fərdi və ümumi çətinliklərini aradan qaldırılması üçün Mərkəzin rəhbərliyinə təkliflər vermək;

- tədris prosesi üzrə aidiyyəti informasiyanı almaq;

- zərurət yarandığı halda tədris prosesində qrupla birgə iştirak etmək;

- fərqlənən dinləyicilər barədə həvəsləndirmə tədbirinin görülməsi və ya daxili intizam qaydalarını pozan dinləyicilər barədə tədbirlərin görülməsi üçün Mərkəzin rəhbərliyinə məlumat vermək;